

İlbəst ARZUMAN

# QARADİNMƏZ

Əyninə uzun, dümağ paltar geyinmişdi, sanki toy məclisinə gedirdi. Amma çöhrəsində toy havasının nişanəsi hiss olunmurdu. Çox həyəcanlı idi.

Budağı sınmış ağacı uzaqdan görən kimi dayandı. Bir anlıq fikirləşdi, sonra başını çevirib geri baxdı. Oğlu Kənan nizamla düzülmüş əsgərləri döyüşə hazır vəziyyətə gətirmişdi və onun işarəsini gözləyirdi.

Zərifə asta addımlarla sınmış budağa yaxınlaşdı. Ətrafdakı ağaclar çoxdan çılpaqlaşmışdı. Bu ağac isə yarpaqlarını töksə də, yerə əyilmiş sınıq budağı sərt havaya sinə gərmiş, saralıb-solmamışdı. İri yarpaqlar, sanki arxasındakı meşəni kənar gözdən qorumaq üçün hələ də yamyaşıl idi.

"Gör üstündən neçə illər keçib, amma bu heç dəyişməyib, olduğu kimi durur" fikirləşib, budağın bir qolunu ehmalca qaldırıb meşəyə baxdı.

Dayandıqları yerdən fərqli olaraq, meşəyə çoxlu qar yağmışdı. Budağın altından keçib meşəyə girmək istədi. Enlikürək zabit oğlu Kənan qollarını yana açaraq onun qarşısını kəsib, meşəyə girməyinə mane olmağa çalışdı. Başını əyib, oğlunun qoltuğunun altından sivişib keçdi.

Bir addım atan kimi ayağının altındakı qarın xışıltısını eşidib dayandı. O dəqiqə də gözü ilə Qaradinməzin oturduğu yeri axtardı. Dayandığı yerdən xeyli aşağıda onu həminki yerdə gördü. Oturuqlu yerdəcə üstünü qar basmışdı.

"Necə oturmuşdusa, eləcə də oturub!"

– Ehey! – deyə onu səslədi.

Səsi meşədə ala-çula əks-səda versə də, Qaradinməz yerindən tərpənmədi.

"Bəlkə, yatır, yuxudadır?!" – fikirləşdi.

Qar xışıltısı ilə onu narahat etmək istəmədi. Odur ki, barmağının ucunda asta-asta ona tərəf addımladı. Qaradinməzə çatmamış dayandı.

"Oyadım, oyatmayımmı? Yuxusuna haram qatımmı? – tərəddüd etdi, – elə gündür ki, yuxuda məni də görə bilər".

Bir-iki addım da irəlilədi.

"Görəsən, bilir ki, erməniləri neçə gündür, Kəlbəcərdən qovmuşuq?.. Çox güman ki, xəbəri yoxdu. Xəbəri olsaydı, bu soyuqda qarın altında niyə oturardı ki?"

Hər halda Qaradinməzi oyatmaq qərarına gəldi. Amma onu necə səsləsin, əsl adını da

bilmirdi. Hamı ona Qaradinməz deyirdi. Amma eşitmişdi ki, əsl adı başqadır. "Öz adı ilə çağırmasam, xətrinə dəyər!"

"Bizim kənd arvadlarının da qəribə xasiyyətləri var ey. Görmüşük ki, kiməsə ayama qoşanda adını da arxasına əlavə edərlər... Görəsən, bunun adını niyə əlavə etməyiblər?

Nəhayət, Qaradinməzi adsız, ləqəbsiz səsləməyi qərara aldı. Əllərini ağzına söykəyib, astaca səsləndi.

– Ey, mənəm, gəlmişəm!

Qaradinməz onun səsini eşitsə də, dillənmədi.

"Bəlkə, məni tanımadı, kim olduğumu yadına salım?" – fikirləşib səsini bir az da qaldırdı:

– Məni tanımadın? Mənəm ey, yadındadır?! İki gün məni meşədə sürüyə-sürüyə apardın...

– Niyə tanımadım, tanıdım, – Qaradinməz dedi və başını azacıq ona tərəf döndərdi. Və tez də əvvəlki vəziyyətinə qaytardı.

– Kəndimiz azad olunub! Xəbərin var?

Qaradinməz başını kəndlərinə tərəf çevirdi, köksünü ötürdü.

– Bilirəm, xəbərim var.

Zərifə:

– Meşənin içində kimdən xəbər tutdun ki? – deyə xəbər aldı.

– Heç kimdən.

– Bəs hardan bildin ki, erməniləri kəndimizdən qovublar?

– Neçə gündür ki, əsgərlərimizin səsini eşidirəm.

– Sən olmasaydın, məni meşədən sürüyüb çıxarmasaydın, ermənilər məni də öldürərdilər.

– Halalın olsun!

– Həmişə sənə duaçı olacam.

Zərifə ətrafa nəzər salıb təəccüblə soruşdu:

– 27 ildir ki, beləcə qar-yağışın altında oturmusan?

– 27 il, yeddi ay, yeddi gün, – deyə Qaradinməz xırıltılı səslə onun dediyinə düzəliş verdi. – Oturmaqdan başqa əlacım yox idi. Kimdir özünə əziyyət verib məni buradan çıxaran?

Araya sükût çökdü. Bir az keçmiş Qaradinməz incik halda dilləndi:

– İncimişəm səndən.

– Niyə?

– Səndən başqa mənim yerimi bilən yox idi, sən də ki belə... Fikirləşmədin ki, ölmüş adamı meşəlikdə atıb getməzlər. Adam kimi basdırmağı demirəm, heç olmasa bu qədər vaxtda bir dəfə imkan edib sümüklərimi torpağa basdıra da bilməzdin? Axı mənə soyuqdur, sümüklərim sızıldayır...

Zərifə üzrxahlıq elədi:

– İnanırsan, bir gün də olsa, fikrimdən çıxmamısan. Həmişə düşünmüşəm ki, meşədə, soyuqda oturub mənim köməyimi gözləyirsən. Neyləyim, ermənilərin əlindən bu tərəflərə ayaq basmaq olmurdu. Dünən onları qovmuşuq, birinci sənin arxanca gəlmişəm. Belinə bağladığın uşaq yadındadır? İndi, maşallah, yekə kişi olub, bir dəstə əsgərin böyüyüdür. Odur, yuxarıda səni gözləyirlər. Ölü niyə olursan?!! Qalx ayağa, gedək, – deyə Qaradinməzə yaxınlaşdı, ayağı qalxmasına kömək etmək istədi.

Zərifə əl atıb onun qoltuğundan tutmaq istədi, amma əlini Qaradinməzə vuran kimi qarşısındakı qar topası yerlə-yeksan oldu, buz parçalarına dönüb üzü dərəaşağı sürüşdü. Bir azdan sonra əriməyə və qan gölməçəsinə çevrilməyə başladı. Qıpqırmızı qan aşağıdan axan bulağa qarışdı. Aşağı endi. Əyilib bilağın suyunu ovcuna götürəndə dəhşətə gəldi: 27 il, yeddi ay, yeddi gündür ki, axan qan bulağı Qaradinməz kimi buza döndü.

* * *

Əli soyuq qana toxunanda yatağından dik atıldı. Zərifəni soyuq tər basmışdı.

Yuxusunu yoza da bilmədi. Amma Qaradinməzin haqlı olduğunu bilirdi.

Yatağının içində bir xeyli oturub keçmişi xatırladı. Kəndlərindən qovulması, evlərinin yandırılması, düşmənlərin həmkəndlilərini güllələbaran etməsi bir daha gözləri önündə çanlandı.

Vətən müharibəsinin ilk qələbə müjdəsini alan gün gördüyü yuxu 27 il əvvəl baş vermiş dəhşətli hadisəni yenidən yadına salmışdı. Elə yataqdaca əllərini göyə qaldırdı:

– Xudaya, əsgərlərimizə kömək ol ki, torpaqlarımızı o murdarlardan azad etsinlər. Mənə də ömür ver ki, Qaradinməzə olan borcumu qaytarım, onun buza dönmüş sümüklərini torpağa qarışdıra bilim. Yazıqdır, o da rahatlıq tapsın!

Səhərə kimi yata bilmədi, yalnız səhərə yaxın yuxuya getdi. O gündən yazıq arvadın yuxusu ərşə çəkildi.

* * *

İşğal olunmuş torpaqlarımızın azad olunması üçün Ali Baş Komandanın hərbi əməliyyatlara başlaması qərarı ildırım sürətilə bütün ölkəyə yayıldı. Qərarı hərə öz başa düşdüyü kimi anlasa da, fikir bir idi: Vətən torpağı düşmən tapdağından azad olunmalı, ata-analarımızın, babalarımızın, şəhidlərimizin, amansızcasına qətlə yetirilən, itkin düşən, əsir götürülən insanların ruhu bu bəladan azad edilməlidir. Qisas zamanı gəlmişdi. İnsanların öz doğma yurdlarına dönmək istəyi birə min artmışdı.

* * *

Son günlər Zərifənin yaralı ayağı daha bərk ağrıyır, sümükləri sızıldayırdı. Odur ki, bütün günü evdən bayıra çıxa bilmir, nəvələrinə nağıl danışır, saatlarla televizor qarşısında oturub müharibə xəbərlərinə baxırdı.

Oğlu Kənan komandir kimi müharibənin ilk günlərindən cəbhəyə yollanmışdı. Ara-sıra evə zəng edirdi. Hər dəfə zəng edəndə Zərifə oğluna Qaradinməz haqqında danışmaq istəsə də, nəvələri imkan vermirdi. Oğlu ilə hal-əhval tutan kimi "mən atamla danışmaq istəyirəm" deyib, ətəyini çəkərdilər. Gəlinin də bir gözü telefondaydı. O da danışmalıydı axı...

* * *

Bir gün böyük nəvəsi əlində telefon qaçaraq onun yanına gəldi:

– Nənə, ay nənə, muştuluğumu ver, muştuluğumu ver!

Zərifə gülərək:

– Muştuluğun məndə! Amma bu, – televizora işarə elədi, səndən qabaq mənə deyib!

Nəvəsi təəccüblə soruşdu:

– Televizorda nəyi dedilər ki?

– Qələbə çaldığımızı, müharibənin qurtarmasını! – deyib nəvəsini qucaqladı.

– Ay nənə, mən sənə başqa xəbər deyəcəm ey!!!

– Atan gəlib? – deyə Zərifə sevincək soruşdu.

– Yox, atam hələ gəlməyib. Amma video göndərib... Muştuluğumu ver, sənə də göstərim.

– Ürəyin nə istəsə, verəcəm. Nə videodur elə, göstər görüm.

– Atamgil sizin kəndi azad ediblər. Kəndinizi çəkib sənə göndərib.

Zərifə ayaqlarının ağrısını unutdu, ayağa qalxaraq telefonu nəvəsinin əlindən aldı və kəndlərindən çəkilmiş iki dəqiqəlik videoya baxdı. Həyəcandan ürəyi döyünməyə başladı. Əlini ürəyinin üstünə qoyub, məzlum-məzlum nəvəsinə baxdı. Bir müddətdən sonra çarpayıya uzanıb, "Qaradinməz məndən gileylidir" – deyə fikirləşdi və əli ilə ağzını tutub hönkürdü. Nəvəsi heç nə anlamadan otaqdan çıxdı.

Axşama yaxın oğlu zəng etdi. Bu dəfə nəvələrinin heç biri "atamla danışmaq istəyirəm" deyib, ətəyindən yapışmadı. Gəlin də ana-balanın söhbətinə mane olmamaq üçün uşaqlarının əlindən tutub otaqdan çıxdı.

Zərifə oğluna başlarına gələn müsibəti danışdı. Qaradinməzin oturduğu yeri ona başa salmağa çalışdı.

– Səni belinə şəlləyib, məni də şinelin üstündə iki gün meşədə sürüyə-sürüyə ermənilərin caynağından xilas edib. Yuxuda mənə gileylənirdi ki, üşüyür, soyuqdan sümükləri sızıldayır. Onun keçindiyi yeri tapıb dəfn etməlisən, – qəhər boğaboğa dedi.

* * *

Zəfər gününün səhəri, lap tezdən şadyanalıq səsinə oyandı. Pəncərəyə yaxınlaşıb pərdəni azacıq araladı, həyətə boylandı. Bir neçə adam hərbi paltarda həyətdə dayanmışdı. Oğlu Kənanı dərhal tanıdı. Nəvələri ona sarılmışdı, gəlini isə yaylığının ucu ilə göz yaşlarını silirdi.

Zərifənin həyətə çıxdığını görən kimi hündürboylu, enlikürək zabitlər "farağat" vəziyyəti alıb, onunla salamlaşdılar.

– Ay sizin gəlişinizə qurban olum! – deyib, onların hamısını bir-bir qucaqladı...

* * *

– Ana, tanış ol, anbardar Mahirin oğlanlarıdır.

– Allah canlarına dəyməsin! Hansı Mahirin uşaqlarıdır, dedin? – deyə Zərifə zabitlərə baxıb gülümsədi.

– Anbardar Qaradinməzin, kəndinizin anbardarı Mahirin! Bu Taleh, bu da Valehdir!

Qarşısında başıaşağı halda dayanmış Qarandinməzin oğlanlarının boynunu qucaqlayıb kövrəldi.

– Allah ona rəhmət eləsin!.. Deməli, adı Mahirmiş, – sanki öz-özünə dedi.

– Ana, uşaqlarla sənin dediyin yerləri axtarmışıq. Amma heç nə tapa bilməmişik. Səni ora aparmaq üçün rəhbərlikdən icazə almışıq, istisna hal kimi.

Bizimlə getməyə razı olarsan? – deyə Qaradinməzin böyük oğlu Taleh dilləndi.

– Razı olaram nə deməkdir? Lap sürünə-sürünə də gedərəm. Təki Qaradinməzin heç olmasa sümüklərini tapaq, Allaha əmanət edək.

* * *

Yol boyu Zərifə o dəhşətli hadisəni oğluna və Qaradinməzin uşaqlarına danışdı:

– Ermənilər bizi kənddən çıxarıb meşəyə qovdular. Biz az getmişdik ki, arxadan bizi güllələməyə başladılar. Birinci mənim qoltuğumdam tutan cavanları vurdular. Ayağım yaralandı, yerə yıxıldım, Kənan altımda qalmışdı. Hamını güllələyib getdilər. Qorxudan yerimdən tərpənmirdim. Kənan da qorxmuşdu, istədi ki, ağlasın. Əlimlə ağzını tutdum ki, səsi çıxmasın. Partlayış səsi, yanıq iyi hiss etdim, başımı azacıq qaldırıb kəndə tərəf boylandım. Evlərimizi yandırmışdılar, durmadan da atəş səsləri eşidilirdi. Yəqin ki, ermənilər kənddə qalan adamları güllələyirdi.

Bir müddət sakitcə uzanıqlı qaldıq. Birdən kimsə mənim paltarımdan tutub kənara çəkdi, uşağı götürmək istədi. Ürək-göbəyim düşdü, elə bildim ki, ermənidir. Başımı döndərib baxdım, sizin rəhmətlik atanız idi. Mənə susmağı işarə etdi. Özü də qolundan yaralanmışdı. Sürünə-sürünə hamını bircə-bircə yoxladı, sağ qalan yox idi.

Əlində silah olan bir erməni də ölmüşdü. Deyəsən, Aşot idi. Ermənilər onu da öldürmüşdülər, imanımı yandıra bilmərəm, bəlkə də, təsadüfən vurmuşdular. Qaradinməz həmin ermənin silahını götürdü. Kürkünü soyundurub, məni onun üstünə uzandırdı. Ölən kəndçilərimizin boğçalarından çörək götürdü. Kənanı belinə bağladı. Bütün gecəni tək qolu ilə məni meşədə sürüdü. İşıqlaşanda bizi qayanın arxasında otuzdurdu. Əlimə yekə bir bıçaq verib, üstümüzü kol-kosla örtdü. Heç yerə tərpənməməyimizi tapşırdı. Özünün hara getməsini biləmmədim.

Kənanı qucaqlayıb yatmışdım. Şər qarışanda qayıtdı. İkinci gecə çox əziyyət çəkdi. Deyəsən, yorulmuşdu. Çoxlu da qan itirmişdi. Dedim ki, məni güllələsin, Kənanla özünü xilas eləsin. Dodaqaltı “arvad ki, arvad” deyə mızıldandı.

İkinci gün yenə Kənanla məni kol-kosun altında otuzdurub getdi. Amma tez də qayıtdı. Bizə susmağı işarə edib, xeyli aralıda ağacın arxasında gizləndi. Bir azdan əsgərlərimizin səsini eşitdik. Sonradan bildim ki, Daşkəsən batalyonunun əsgərləridi, meşələrə dağılmış adamlarımızı axtarırlar.

Atanız onları səslədi. Əsgərlərin bizə tərəf gəldiklərini görəndə sevindi. Dərindən nəfəs aldı, gülümsədi və ağaca söykənib qaldı. Əsgərlər gələndə gec idi. Atanız ölmüşdü. Allah ona qəni-qəni rəhmət eləsin, öz ölümü ilə bizi xilas etdi.

Meyidini də götürə bilmədik. Əsgərlərdən biri, deyəsən, böyükləriydi, “Ermənilər böyük dəstə ilə arxamızca düşüblər, burdan gedək, sonra qayıdıb götürərik, dedi...”

Allah heç kimə elə günlər qismət eləməsin, Allah zalımın evini yıxsın! – deyə söhbətini yekunlaşdırdı.

***

Nifrəti, qan yaddaşını necə unutmaq olar!? “Dünən yediyim bu gün yadıma düşmür” deyə şikayətlənən Zərifə, Qaradinməzin oturduğu yeri, çətinliklə də olsa, tapa bildi.

Kənan, Taleh və Valeh Qaradinməzin ətrafa səpələnmiş sümüklərini bircə-bircə axtarıb tapdılar və elə oradaca dəfn elədilər.

– Bəs atanızı kəndinizdə dəfn etməyəcəksiniz? – deyə Zərifə soruşdu.

– Torpağımızın hər qarışı bizim üçün Vətəndir. “Atanızın ruhunu narahat etməyin, harada tapsanız, orada da dəfn edərsiniz”. Anamın vəsiyyəti beləydi, –Taleh dedi.

* * *

Həmin gecə yatağına uzanan kimi Zərifəni yuxu apardı.

**Yanvar-fevral, 2021**